Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

# Press-reliz

Azərbaycan Avropa və Asiya arasında vacib nəqliyyat dəhlizi kimi təxminən 3 milyard ton neft və 3 trilyon $m^3$ təbii qaz ehtiyatları ilə dünya enerji təhlükəsizliyində öz layiqli yerini tutur.

Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTE) boru kəmərləri vasitəsilə Azərbaycan 2008-ci ildə dünya bazarlarına təxminən 60 milyon ton xam neft və 30-32 milyard $m^3$ qaz nəql edəcəkdir. Neftinin ixracı üçün BTC neft boru kəmərindən istifadə edilməsinə Qazaxıstan razılıq vermişdir.

Transxəzər boru kəməri layihəsi Cənub Qafqaz boru kəməri (BTE) vasitəsilə Avropa bazarlarını Xəzər hövzəsindən təbii qaz ilə təchiz edərək, Türkiya, Avstriya, Bolqarıstan, Rumıniya və Macarıstan vasitəsilə Nabukko boru kəmərinin uğurunu təmin edəcəkdir.

Azərbaycan ABŞ və AB ilə enerji təhlükəsizliyi sahəsində Anlaşma Memorandumlarını imzalamaqla, dünya bazarlarına neft və qazın müxtəlif yollarla daşınmasına imkan yaratmışdır.

27 dekabr 2007-ci il